**Kino xalqın milli adət-ənənəsini, tarixi keçmişini, mədəniyyətini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirən, həyatı, reallıqları sənət dilində təcəssüm etdirən və ən başlıcası da, böyük inandırma gücünə malik olan sənət növüdür.**

**Azərbaycan kino sənəti yarandığı gündən bu günədək xalqımızın milli ruhunun qorunub saxlanması, qəhrəmanlıq ənənələrini yaşadaraq inkişaf etdirməsi işinə xidmət göstərmişdir.**



# Şərəfli keçmişdən gələcəyə gedən yol

Azərbaycan Kinematoqrafçılar İttifaqının yaranmasından 60 il keçir. 60 yaşlı bu təşkilatın yarandığı gündən əsas məqsədi milli kinomuzu mədəniyyətimizin və dünya kinosunun əsas hissəsi olaraq inkişaf etdirməsi olub.

Yarandığı gündən Azərbaycan kinosu rəqabətə davamlı olub. Azərbaycan kinematoqrafçılarının sənət nümunələri keçmiş SSRİ-də və dünyanın bir sıra ölkələrində maraqla qarşılanıb, ən dəyərli mükafatlara layiq görülüb, çox nümayiş etdirilərək tamaşaçı rəğbəti qazanıb.

SSRİ dövründə çəkilən kinolara nəzər salsaq, kino xadimlərimizin o çətin illərdə hansı tarixi qəhrəmanlıqlar göstərdiyinin şahidi olarıq. Bəzən siyasi xadimlərin, dövlət adamlarının deyə bilmədiklərini kinematoqrafçılarımız yaratdıqları ekran əsərində böyük ustalıqla dilə gətirib insanların yaddaşında iz buraxa bilmişlər. "Atları yəhərləyin" filmində Qaçaq Nəbinin şah rejiminin qulu olan məmurla üzləşməsi epizodu, xalq qəhrəmanının soydaşlarımıza zülm edən məmura şapalaq vuraraq "Arazın o tayı da, bu tayı da Azərbaycandır" deməsi ikiyə bölünmüş xalqın taleyini göstərməklə, xalqımızı parçalayıb onu əsarətdə saxlayanlara verilmiş sərt bir mesaj idi. Və yaxud "Dədə Qorqud" filmində Oğuz elinin, Azərbaycan torpaqlarının qədim coğrafiyası çox dəqiqliklə göstərilir. Azərbaycan kinosunun xalqın düşüncəsinə, mənəviyyatına təsirindən bəhs edən Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşublar… Xalqımızın inkişafı yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

O illərdə çəkilən Azərbaycan kinolarının qəhrəmanları xalqımızın içindən çıxmış insanlar idi. Kinolardakı təbiilik, aktyor rollarındakı canlılıq, rejissor işindəki ustalıq, kino ssenarilərinin məzmunu və peşəkarlıq o qədər yüksək olurdu ki, yaradılmış əsərlər o dərəcədə real görünürdü ki, insanlar, tamaşaçılar özlərini kino qəhrəmanlarına oxşatmağa çalışırdılar.

SSRİ dövründə çəkilən ekran əsərlərinin böyük əksəriyyəti sözün gerçək mənasında əsl sənət nümunəsi idi. Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini əks etdirən "Babək", "Nəsimi", "Axırıncı aşırım", "Yeddi oğul istərəm", "Qanun naminə", "Böyük dayaq", "Ulduz", "Uzaq sahillərdə", "Arşın mal alan", "Şərikli çörək", "Qəzəlxan", "Yaramaz" Azərbaycan kino sənətinin ən yaxşı nümunələri hesab olunmaqla tamaşaçıların yaddaşında əbədiyaşarlıq qazanmışdır.

Azərbaycan müstəqilliyini əldə edəndən sonra da kinematoqrafçılarımız milli kinomuzun tarixi ənənələrinə sadiqliklərini qoruyub saxlaya bilmişlər. Bu illərdə gənclərdə vətənpərvərlik hissini alovlandıran sənət nümunələri yaranmışdır. Bu məqamda mərhum rejissor Ceyhun Mirzəyevin yaratdığı "Fəryad" filminin adını xüsusi olaraq qeyd etmək istəyirik. Film erməni qəsbkarlarının torpaqlarımızda törətdikləri vəhşilikləri olduqca real, həyati faktlarla, böyük ustalıqla əks etdirir. Ekran əsərinin gücü onun inandırıcılığında, tamaşaçıya təsiri ilə qiymətləndirilir. Bu sahədə "Fəryad" filminin gənclərimizin vətənpərvərlik hssinin güclənməsində istisnasız rolu qeyd edilməlidir.

Müstəqillik illərində ekranlaşdırılan "Dolu", "Cavad xan", "Son döyüş", "Yarasa", "Köpək", "Həm ziyarət, həm ticarət", "Yalan" filimlərində milli kinomuzun adət-ənənələri böyük ustalıqla davam etdirilib.

Azərbaycan kinosunun keçmişinin olduqca şərəfli və yaddaqalan olduğunu heç kim inkar edə bilməz. Çox təəssüf ki, kinomuzun bu günü haqqında o qədər də ürəklə danışmaq mümkün deyil. Yeni yaranan ekran əsərləri günün reallıqları ilə ayaqlaşa bilmir. Azərbaycan əsgərinin döyüş meydanında göstərdiyi qəhrəmanlıqlar hələ ekran əsərlərində, kinomuzda öz əksini layiqincə tapa bilməyib. İnanırıq ki, xalqımıza zəfər qazandıran 44 günlük Vətən müharibəsindəki qələbə, göstərilmiş böyük qəhrəmanlıqlar özünün dolğun ekran təcəssümünü tapacaq, Azərbaycan kinematoqrafçıları yeni əsərləri ilə xalqımızın qəhrəmanlıq salnaməsinin ən şanlı tarixini öz sənət nümunələrində dünyaya təqdim edəcəklər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-11 yanvar.- S.11.